**Respublika.** - 2024.- 16 may. - № 101. - S. 9.

# COP29-un Azərbaycanda keçirilməsi qürurvericidir

**Vəli Vəliyev**

***Azərbaycan hazırda qlobal tədbirə ciddi hazırlıq mərhələsindədir. 1990-cı illərdən başlayaraq Ermənistan işğal etdiyi ərazilərimizdə genişmiqyaslı ekoloji terror törətmişdir. Topxana meşəsində adı Qırmızı Kitaba düşən qiymətli ağacların kütləvi qırılması, mövcud su mənbələrinin, çayların zəhərli maddələrlə çirkləndirilməsi, yeraltı və yerüstü təbii sərvətlərin talan olunması və digər çirkin addımların atılması ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur.***

Azərbaycan ekoloji terrordan daha çox əziyyət çəkən ölkədir. Bu baxımdan ölkəmizin COP29 kimi vacib beynəlxalq tədbirə ev sahibliyi etməsi yaxşı bir məqamdır. Dövlətimizin başçısı İlham Əliyev Almaniyanın Berlin şəhərində "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı çıxış edərək bildirmişdir: "COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir. Çünki biz nəinki yaxşı tədbir təşkil etməliyik, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq".

25 dekabr 2023-cü il tarixli "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn vəzifələr icra olunaraq iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlər ana təbiətə töhfələr verəcək.

İşğaldan azad olunmuş ərazilərimizdə məhv olmuş meşələrin yerində on minlərlə müxtəlif ağac və kolların əkilərək onlara aqrotexniki qulluq göstərilir.

İqlim dəyişmələri bütün dünyanı narahat edən ən qlobal problemlərdən biridir. Atmosferdə oksigenin miqdarını artırmağın ən optimal üsulu yaşıl iqtisadiyyatın sürətli inkişafına nail olmaqdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında mövcud potensialdan istifadə etməklə respublika iqtisadiyyatına əvəzsiz töhfələr veriləcək.

Hazırda işğaldan azad olunmuş ərazilərdə, həmçinin digər bölgələrdə yaşıl enerji mənbələrindən istifadəyə üstünlük verilir ki, bu da qlobal iqlim dəyişmələrinə verilən ən böyük töhfədir. Ümumiyyətlə, texnoloji proseslərdə ekologiyanın qorunması üçün təmiz enerji mənbələrindən istifadə etmək, ətraf mühitin çirklənməsinə şərait yaradan tullantıların təkrar emalı, mina və digər vasitələrlə çirklənmiş, təhlükəli zonaya çevrilmiş ərazilərin yenidən bərpa olunaraq təmiz zonaya çevrilməsi məsələsinə xüsusi diqqət yetirilir.

Xüsusi vurğulamaq lazımdır ki, COP29 kimi mötəbər tədbir postsovet məkanında ilk dəfədir Azərbaycanda keçiriləcəkdir ki, bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın beynəlxalq aləmdə qazandığı nüfuzunun, iqtisadi və digər sahələrdə güclənən mövqeyinin bariz nümunəsidir.

İşğaldan azad olunmuş ərazilərdə, o cümlədən Kəlbəcər və Laçın rayonlarında 1000 MVT gücündə külək elektrik stansiyasının tikintisi də həyata keçirilir.

Bununla yanaşı, doğma Qarabağımızın sakinləri üçün inşa olunan yaşayış evləri və digər binaların damında günəş panelləri quraşdırılması nəticəsində gücü 200 MVT günəş elektrik stansiyasının tikintisi ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bolsulu və nisbətən xırda çaylar mövcuddur. Bu baxımdan çaylar üzərində iri və kiçiktutumlu su elektrik stansiyalarının qurulması, eləcə də Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" su elektrik stansiyalarının tikilib istifadəyə verilməsi ekoloji tarazlığın qorunması istiqamətində atılan ən vacib addımlardandır.

Azərbaycan elektrik enerjisi ixrac edən ölkə kimi tanınır. Yaxın vaxtlarda Araz çayı üzərində inşa olunmuş "Qız qalası" su elektrik stansiyasının açılışı olacaqdır. Bu möhtəşəm layihənin həyata keçirilməsi ilə ildə 358 milyon kVt/saat elektrik enerjisi istehsal olunacaq, eyni zamanda 252 min hektar əkinəyararlı torpaq sahəsi suvarma suyu ilə təmin ediləcəkdir.

Ermənilər Qazax rayonunun 7 kəndini, eyni zamanda flora və fauna ilə zəngin 2224 hektar meşə sahəsini də işğal etmişdi. Son zamanlara qədər meşələri qəddarcasına talamışlar. Heç şübhəsiz, həmin ərazilərdə də dəyən ziyan aradan qaldırılacaq, yeni meşə massivləri salınacaqdır. Çünki xalqımız və dövlətimizin məqsədi təbiətimizi qorumaqdır.

2023 və 2024-cü ilin əvvəllərində meşə massivlərinin Tovuz rayonuna aid olan hissəsində 9 min, Ağstafa rayonunda 10 min, Qazax rayonunda 50 min göyrüş, tut, cəmi 150 min ədəd ağac tinglərinin əkini

həyata keçirilmiş, eyni zamanda adıçəkilən meşə sahələrində 52 hektar ərazidə 5 min kiloqram palıd toxumu səpini aparılıb.

Bundan başqa, ekoloqlar 52 min qurumuş və ya müxtəlif səbəblərdən məhv olmuş ağacların yerində tinglər basdırmışlar. Cari ilin payız aylarında adıçəkilən meşə massivlərində 120 min ağac tinginin əkilməsi nəzərdə tutulur. Ərazisi 9658 hektar olan Ağstafa Dövlət Təbiət Qoruğunda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində bir sıra vacib tədbirlər həyata keçirilir. Qoruğun sanitar mühafizə zonasında müxtəlif meşə cinsindən olan 2 min ağac əkilmişdir. Qeyd etmək lazımdır ki, qoruqda 80 növ quş, 12 növ məməli, 360 növ bitki və ağac növü mövcuddur. Hazırda qoruq ciddi şəkildə qorunur.

Qərb bölgəsində fəaliyyət göstərən 14 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin kollektivi COP29-la bağlı tədbirləri həyata keçirir. 25 hektara qarşı 60 hektarda meşə əkinləri aparılmış, bundan 41,5 hektar meşə əkini olmuşdur ki, 124350 ədəd müxtəlif ağac tingləri əkilmişdir. 18,5 hektar açıq sahədə 540 kiloqram palıd toxumu səpilib. 103 hektar sahədə 20 mindən çox müxtəlif cinslərdən olan ağac tingləri meşə massivlərinə əlavə olunmuşdur. 0,17 hektar sahədə Eldar şamı, cökə, sərv, göyrüş və qoz toxumlarından istifadə olunmaqla tinglik sahəsi yaradılmışdır və onlara aqrotexniki qulluq göstərilir.

Azərbaycanda ekologiyanın qorunması, təbiətə qayğı, yaşıl dünyanın inkişaf etdirilməsi istiqamətində atılan addımlar dünyaya real nümunədir.